# Azərbaycan tarixinin şanlı səhifəsi

**2020-ci il Noyabrın 8-i Azərbaycan tarixinə şanlı Qələbə günü kimi həkk olundu. Həmin il sentyabrın 27- də Ermənistan silahlı qüvvələrinin sərhədboyu ərazilərimizdə başlatdığı təxribatları müharibəyə çevirildi. Vətən müharibəsi adlandırdığımız İkinci Qarabağ müharibəsi cəmi 44 gün davam etdi və Azərbaycanın tam qələbəsi ilə başa çatdı. Bu gün çoxəsrlik tariximizin şərəfli səhifələrindən olan müqəddəs Vətən müharibəsində tarixi Zəfərimizin üçüncü ildönümünü qeyd edirik. Üç il öncə bu günlərdə Ordumuz Azərbaycan xalqına Qələbə yaşatdı. Biz xalq olaraq 44 günlük Vətən müharibəsinin hər günündə Ordumuzla nəfəs aldıq, ürəyimiz, ruhumuz əsgərlərimizin yanında oldu. Və nəhayət, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat 30 illik işğala son qoydu. Prezidentimiz, Ali Baş Komandanımız cənab İlham Əliyevin də dediyi kimi "Biz döyüş meydanında qan tökərək, şəhidlər verərək göstərdik ki, Qarabağ Azərbaycandır".**

Bəziləri düşünürdü ki, Azərbaycan 2020-ci il 8 noyabrda üçtərəfli Bəyanatla təsbit edilmiş status-kvonu dəyişməyə cürət etməyəcək və Şuşa ilə kifayətlənəcək. Doğrudur, müharibənin ilk günlərindən Azərbaycana qarşı çox güclü təzyiqlər, təhdidlər var idi. Ölkə rəhbərliyi bu cür gərgin vəziyyətdə belə geri addım atmadı. Ağdam, Kəlbəcər, Laçın rayonları döyüşsüz Azərbaycana qaytarılandan sonra Ordumuz Ermənistanla sərhəddə - Laçında keçid məntəqəsi qurdu. Heç vaxt başladığı işləri yarımçıq qoymayan və bütün fəaliyyəti boyunca "nəyi, nə zaman və necə" etməyin ən yaxşı nümunələrini göstərən Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev suverenlik və ərazi bütövlüyü məsələsində heç vaxt güzəştə getməyib. Sonrakı 3 il ərzində həyata keçirilən siyasətin davamı olaraq bu il sentyabrın 20-də Xankəndi Azərbaycanın nəzarətinə keçdi və bu gün orada Dövlət Bayrağı dalğalanır. Oktyabrın 15-də Xankəndidə Azərbaycan Bayrağının ucaldılması öz tarixi və siyasi əhəmiyyətinə görə Şuşanın azad olunmasına - 8 Noyabr - Zəfər Gününə bərabərdir.

Azərbaycanın 200 il davam edən ədalətsizliyə 44 gün davam edən Vətən müharibəsində son qoyması bunun bariz nümunəsidir. Qəhrəman Azərbaycan xalqı və onun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordusu sübut etdi ki, gec-tez ədalət zəfər çalır. Bu gün işğaldan azad edilmiş torpaqlarımız erməni vəhşiliklərinin təqdimatıdır. Çünki ermənilər bu torpaqlardan Azərbaycan xalqının izlərini silmək üçün bütün tarixi və mədəni abidələrimizi yerləyeksan etsələr də bunun mümkünsüzlüyünün şahidinə çevrildilər. Reallıq budur ki, 30 ilə yaxın müddət ərzində Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlayaraq burada qeyri-qanuni qondarma rejim yaratmışdı. Bütün bu illər ərzində Azərbaycan münaqişəni sülh yolu ilə həll etməyə çalışırdı. Lakin Ermənistanın məqsədi işğala əsaslanan status-kvonu möhkəmləndirmək idi. Ermənistanın baş naziri Nikol Paşinyanın 2019-cu ildə o vaxt işğal



altındakı Xankəndi şəhərində "Qarabağ Ermənistandır və nöqtə" açıqlaması sülh danışıqlarına son qoydu. Ermənistan rəhbərliyi o vaxt Azərbaycanı "yeni torpaqlar uğrunda yeni müharibə" ilə hədələyirdi. 2020-ci ildə Ermənistan rəhbərliyinin təxribat xarakterli hərəkətləri və bəyanatları, o cümlədən keçmiş təmas xəttində mütəmadi olaraq atəşkəsin pozulması İkinci Qarabağ müharibəsini qaçılmaz etdi. 2020-ci il 27 sentyabr tarixində Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini müxtəlif istiqamətlərdən raket atəşinə tutması dövlətimizin , xalqımızın səbir kasasının dolmasına səbəb oldu.

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin sarsılmaz iradə və qətiyyətlə davam və inkişaf etdirdiyi, milli dövlətçiliyin və tam müstəqilliyin təmin olunmasına, iqtisadiyyatın möhkəmləndirilməsinə, regionda ən güclü ordunun qurulmasına, silahlı qüvvələrin modernləşdirilməsinə istiqamətlənmiş bu siyasi kurs ölkəmizin suverenliyinin tam bərpasının həlledici əsasını təşkil etdi. Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, "Azərbaycan bütün dünyaya göstərdi ki, işğal altında olan torpaqlarını öz gücü ilə, öz qüdrəti ilə azad etməyə qadirdir". Vətən müharibəsi nəticəsində Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən öz ərazi bütövlüyünü, suverenliyini, sərhədlərinin toxunulmazlığını təmin etdi, bununla BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrasına nail oldu. Vətən müharibəsi dövründə Azərbaycanın qələbələri təkcə döyüş meydanında deyil, eyni zamanda, diplomatiya sahəsində davam etdirildi. Prezident İlham Əliyev müharibə dövründə dünyanın ən böyük media qurumlarına 30-dan çox müsahibə verdi, münaqişə ilə bağlı əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırdı, dünyanın fikrini dəyişdirməyə müvəffəq oldu.

Şanlı Zəfərimiz qürur mənbəyimizdir. Bu qələbənin əldə edilməsi təcrübəsi hazırda dünyanın qüdrətli dövlətlərinin ali hərbi məktəblərində öyrənilir. Bütün bunlar Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Döyüş meydanında tarix yazan ordumuz Ermənistanı məğlubiyyətə uğradaraq 30 illik işğala son qoydu. Dövlətimizin ərazi bütövlüyünün təmin edilməsi ilə yanaşı, erməni şovinizminə və ekspansionizminə sarsıdıcı zərbə endirildi. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə hər il noyabrın 8-i Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilir. 2023-cü il sentyabrın 19-20-də təxminən 24 saat davam edən antiterror tədbirlərində dövlət suverenliyi bütün ərazilərimizdə tam şəkildə bərpa edildi, ermənilərə məxsus təxribatçı hərbi birliklər tərk-silah edildi, onlar torpaqlarımızı tərk etdilər. Oktyabrın 15-də Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağı qaldırıldı. Bu baxımdan builki bayram bütün ölkə ərazisində daha təntənəli şəkildə qeyd olunur. Müstəqil Azərbaycan dövləti Ali Baş Komandanın və rəşadətli ordumuzun qazandığı qələbə ilə öz gücünü dünyaya sübut edərək regionda yeni reallıqlar yaratdı. Bu gün Azərbaycanın öz suverenliyini bərpa etməsi bir çox dövlətlər üçün nümunədir. Ərazi bütövlüyünün təmin olunması regionda davamlı sülhün, təhlükəsizliyin təmin olunmasına xidmət edir və beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır.

44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimizdən dərhal sonra azad edilmiş torpaqlarımızda genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilməsi dünya tarixində nadir hadisələr sırasındadır. Dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərimizə davamlı səfərlərinin hər biri Böyük Qayıdışa doğru atılan addımdır. Hər bir səfər bir sıra sosial obyektlərin açılışı və təməlqoyma mərasimlərinin keçirilməsi ilə yadda qalır. Hazırda Ağalı və Talış kəndləri, Laçın və Füzuli şəhərləri mərhələli şəkildə sakinlərinə qovuşurlar. Böyük Qayıdışın növbəti ünvanı Xankəndiyədir. Cari ilin mühüm uğurları sırasında Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsini xüsusi vurğulamaq lazımdır. Azərbaycan-Ermənistan sərhədində Laçın rayonu ərazisində Həkəri çayının üzərində 23 aprel 2023-cü il tarixində Laçın sərhəd-buraxılış məntəqəsi quruldu. Laçın sərhəd-buraxılış məntəqəsinin qurulması şanlı Şuşa Zəfərindən sonra əldə edilmiş ən böyük və əhəmiyyətli hərbi-siyasi qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

Müharibələrdə böyük qələbələrin əsasında duran ən başlıca amil xalq-dövlət-ordu birliyinin sarsılmaz vəhdətinin təmin olunmasıdır. Qürurverici haldır ki, hazırda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müstəqil dövlətimiz özünün qüdrətini bütün dünyaya nümayiş etdirir və əminliklə demək olar ki, gələcək nəsillər də bu şanlı tariximizlə fəxr edəcək. 8 Noyabr - Zəfər Gündə müstəqilliyimiz, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini dərin hörmət və minnətdarlıqla yad edirik.

***Rafael İSMAYILOV***
***Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Hərbi təsisatlarda təhqiqata nəzarət və cinayət təqibindən kənar icraatlar idarəsinin prokuroru, ədliyyə polkovnik-leytenantı***